# Rəsul Rzanın illərin o tayından gələn səsi




Gənc qələm dostum Tahir Taisoğlu ilə mən çoxdan tanışam. Onun Bakıda ilk şeirlər kitabı hələ 19 yaşında ikən nəşr olunmuşdu. Tahirin şeirlərində poetik fikirlər aydın və təsirlidir. Ən adi hadisələrə belə şair gözü ilə baxan Tahir orada çox şeyi görməyi bacarır. Onun şair obrazlarının gücü gördüklərinin zahiri təsviri ilə sadəcə yetərlənmir, bizləri də fenomen dərinliklərinə nüfuz etməyə çağırır.

Çox yaxşıdır ki, Tahir Taisoğlunun şeirlərində gördüyü və hiss etdiyi rənglər birləşməsi dünyanın cəlbedici mənzərəsini təzədən açır, oxucu qəlbini konstruktiv narahatlıq və düşüncə çalarları ilə döyündürür.

Tahir, şairliyin asan olmayan yollarında sənə yeni uğurlar arzu edirəm.

**P.S.** Yazı Azərbaycan dilində ilk dəfə çap olunur.

**Rəsul RZA,**

*SSRİ Dövlət Mükafatı laureatı,*

*Sosialist Əməyi Qəhrəmanı,*

*Azərbaycanın Xalq şairi*

*"İSTOKİ" almanaxı. Moskva.*

*"Molodaya Qvardiya" nəşriyyatı. 1981.*